

# Sizin təlimat (Vabismo)▼

Vabismo dərman vasitəsi böyüklərdə aşağıdakı xəstəliklərin müalicəsində istifadə edilir:

- yaşa bağlı neovaskulyar (yaş) makulyar degenerasiya (yaş nYMD)
- diabetik makulyar ödemlə (DMÖ) əlaqəli görmə pozğunluqlar.

Version 6.4.0

Bu təlimatda Vabismo dərman vasitəsi ilə əlaqəli fayda və riskləri anlamaq üçün vacib təhlükəsizlik məlumatları təqdim edilmişdir.

Siz bu təlimatı mövcud vəziyyətiniz və müalicəniz barədə daha ətraflı məlumat almaq üçün istifadə edə bilərsiniz. Bu təlimat həm də nYMD və ya DMÖ olan insanların yaxınları və baxıcıları üçün nəzərdə tutulmuşdur. Əlavə suallar olarsa, həkimlə əlaqə saxlamaq lazımdır.

Bu dərman vasitəsi xüsusi nəzarətdə olan dərman vasitələrinin siyahısına daxil edilmişdir. Bu, yeni təhlükəsizlik məlumatlarını tez bir zamanda müəyyən etməyə imkan verəcəkdir. Siz baş verə bilən hər hansı əlavə təsirləri bildirməklə, bu prosesə kömək edə bilərsiniz. Əlavə təsirləri necə bildirmək üçün son səhifəyə baxın

**Bu məlumatın rəqəmsal versiyası üçün bu QR kodu skan edin.**

Version 6.4.0

# 1 | Vacib təhlükəsizlik məlumatlarının xülasəsi

**Vabismo dərman vasitəsi ilə müalicədən sonra aşağıdakı simptomlardan hər hansı biri qeyd edilərsə, mümkün qədər tez həkimlə əlaqə saxlayın:**

- Görmə qabiliyyətinin qəfil zəifləməsi
- Görmənin dumanlaması və ya həmişəki kimi yaxşı olmaması, o cümlədən görmə sahəsində kiçik hissəciklərin sayının artması
- Gözdə qızarıqlığın artması, ağrı, narahatlıq hissi
- İşığa qarşı həssaslığın artması.

# 2 | nYMD nədir ?

**nYMD** 60 yaş və daha böyük insanlar arasında görmə itkisinin inkişafının ümumi səbəbi hesab edilir. nYMD nə qədər çox proqressivləşərsə, görmə itkisi bir o qədər çox olar. Bu uzun müddət davam edən haldır və davamlı qayğı tələb edir.

Makulyar degenerasiya torlu qişanın mərkəzi hissəsi olan makulada damarların anormal böyüməsi nəticəsində baş verir.
Daha sonra damarlarda qanaxma müşahidə edilə və gözün arxasına maye sıza bilər ki, bu da gözün arxasındakı işığa həssas təbəqə olan torlu qişanın ödeminə və görmə itkisinə səbəb olur.

nYMD zamanı bir və ya hər iki göz zədələnə bilər, lakin bu zədələnmə görmənin yalnız mərkəzi hissəsini əhatə edir.

**Torlu qişa** gördüyümüz təsvirləri qeyd edən və sonra onları beyinə ötürən gözün içərisində olan arxa təbəqədir.

**Makula** ən kəskin görmə qabiliyyətimizə cavabdeh olan torlu qişanın mərkəzi hissəsidir. Oxumaq, avtomobil idarə etmək, üzləri və ya rəngləri tanımaq və obyektləri kiçik detallarda görmək üçün zəruridir.

## Sağlam göz




## nYMD ilə zədələnmiş göz



# Simptomlara aid ola bilər:



görmə mərkəzində qaranlıq, boş sahə



rənglərin daha az parlaq və ya zəif görünməsi



bulanıq görmə



obyektlərin yanlış forma və ya ölçüdə görünməsi

- Görmə mərkəzində qaranlıq, boş sahə
- Rənglərin daha az parlaq və ya zəif görünməsi
- Bulanıq və ya təhrif olunmuş görmə, məsələn, düz xətlərin dalğalı görünməsi
- Obyektlərin yanlış forma və ya ölçüdə görünməsi
- Oxumaqda və nəqliyyat idarə etməkdə, televizora baxmaqda və ya digər gündəlik işləri görməkdə çətinlik.

# 3 | DMÖ nədir?

Uzun müddət şəkərli diabetdən əziyyət çəkən insanlar (qanda yüksək şəkər (qlükoza) səviyyələri) **DMÖ** inkişafı ilə bağlı riski altındadır.

DMÖ, gözün arxasındakı işığa həssas təbəqə olan torlu qişada qan damarları zədələndikdə baş verir. Bu damarlar daha sonra gözə mayenin sızmasına səbəb olaraq, makulada, torlu qişanın mərkəzi hissəsində ödemə və görmə itkisinə səbəb ola bilər.

DMÖ şəkərli diabet olan insanlarda görmə itkisinin əsas səbəbidir.

**Torlu qişa** gördüyümüz təsvirləri qeyd edən və sonra onları beyinə göndərən gözün içərisində olan arxa təbəqədir.

**Makula** ən kəskin görmə qabiliyyətimizə cavabdeh olan torlu qişanın mərkəzi hissəsidir. Oxumaq, avtomobil idarə etmək, üzləri və ya rəngləri tanımaq və obyektləri kiçik detallarda görmək üçün istifadə olunur.

## Sağlam göz




## DMÖ ilə zədələnmiş göz



## Simptomlara aid ola bilər:



Boşluqlar və ya qaranlıq ləkələr



Rənglərin daha az parlaq və ya zəif görünməsi



Bulanıq görmə



Obyektlərin yanlış forma və ya ölçüdə görünməsi

- Görmə sahəsində boşluqlar və ya tünd ləkələr
- Rənglərin tutqun və ya solğun görünməsi
- Bulanıq və ya dalğalı görmə
- Yanlış ölçüdə görünən obyektlər
- Parlaq və ya güclü işıqda görməkdə çətinlik
- Oxumaq və nəqliyyat idarə etməkdə çətinlik

# 4 | Vabismo nədir ?

Vabismo, tərkibində **farisimab** təsiredici maddəsi olan göz inyeksiyasıdır.

Müəyyən zülalların səviyyəsi normadan yüksək olduqda, bu, qan damarlarının anormal böyüməsinə və ya gözün arxasındakı normal damarlarının zədələnməsinə səbəb ola bilər. Daha sonra bu anomaliya nəticəsində gözə maye sıza bilər ki, bu da şişkinlik və görmə itkisinə səbəb olar.

Vabismo həmin zülalları blokadaya alaraq maye sızıntısını azaltmağa kömək edir və bununla da görmə qabiliyyətini qoruyur və ya hətta yaxşılaşdırır.

Müalicənin düzgün aparıldığına əmin olmaq üçün mövcud vəziyyətiniz həkim tərəfindən mütəmadi olaraq izlənəcək.



# 5 | Vabismo ilə müalicə

## Müalicə gününə hazırlıq

- Ailə üzvünüz və ya baxıcınız sizi konsultasiyaya aparıb və geri gətirməlidir. Bu, sizə nəinki logistikada, həm də həkimlə söhbət zamanı verilən bütün məlumatları yadda saxlamaqda kömək edə bilər.
- İnyeksiya günündə makyajdan etmək olmaz.
- İnyeksiyadan sonra gözləriniz işığa həssas ola biləcəyi üçün özünüzlə tünd rəngli şüşəsi olan eynək götürün.

## Müalicə günü

### İnyeksiyadan əvvəl

Vabismo göz inyeksiyasının yeridilməsində təcrübəsi olan həkim tərəfindən gözünüzə intravitreal inyeksiya şəklində yeridilir. İnyeksiyadan əvvəl həkim infeksiyanın qarşısını almaq məqsədilə gözünüzü ehtiyatla təmizləmək üçün dezinfeksiyaedici göz yuyucu vasitələrdən istifadə edəcək.

Belə inyeksiyadan narahat olmağınız başa düşüləndir. İnyeksiya zamanı ağrıları azaltmaq və ya qarşısını almaq məqsədilə gözü ağrısızlaşdırmaq üçün həkim göz damcısı (yerli anesteziya məqsədilə) istifadə edəcək.

Gözlərinizi qırpmamaq üçün göz qapaqlarınız alətin istifadəsi ilə açıq saxlanılacaq.

**Vabismo dərman vasitəsini qəbul etməzdən əvvəl həkimə məlumat verin:**

- Gözünüzdə və ya göz ətrafında infeksiya olduqda
- Gözdə ağrı və ya qızartı (göz iltihabı) olduqda
- Farisimaba və ya bu dərman vasitəsinin tərkibindəki köməkçi maddələrdən hər hansı birinə qarşı allergiyanız olduqda, Tam məlumat qablaşdırmada olan içlik-vərəqəsində qeyd olunub.

## İnyeksiya zamanı

- İnyeksiya cəmi bir neçə dəqiqə çəkəcək.
- Siz ayıq vəziyyətdə olacaqsınız.
- İnyeksiya zamanı təzyiq hiss edə bilərsiniz, lakin heç bir ağrı hiss etməməlisiniz.

## İnyeksiyadan sonra

- Hər hansı xüsusi fəaliyyətlə məşğul olub-olmamağınız barədə həkiminizdən soruşun.
- Həkiminizin sizə təyin etdiyi müalicəni istifadə edin.
- Gözlərinizə mümkün qədər çox istirahət verməyə çalışın.
- Vabismo inyeksiyasından ən azı bir neçə saat sonra müvəqqəti görmə problemləriniz (məsələn, bulanıq görmə) ola bilər. Bu müddət ərzində maşın sürməyin və ya təhlükəli mexanizmlərdən istifadə etməyin.

# 6| İnyeksiyadan sonra adekvat qulluq üçün tövsiyələr

İnyeksiyadan sonra, ehtimal ki, görmə qabiliyyətiniz bulanıqlaşacaq və görmə sahəsində kiçik hissəciklər də qeyd edilə bilər. Bu normal haldır və yalnız bir neçə gün davam etməlidir.

**Bəzən, Vabismo intravitreal inyeksiyasından sonra siz aşağıdakıları müşahidə edə bilərsiniz:**

- Göz daxilində iltihab

Göz daxilində "endoftalmit" adlanan nadir hallarda rast gəlinən, lakin ağır infeksiya.

**Allergik reaksiyalar, iltihab və ya infeksiya göstəricisi olan aşağıdakı əlavə təsirlərdən hər hansı biri qeyd olunduqda dərhal həkimlə əlaqə saxlayın:**

- Qəfil görmə itkisi
- Göz qızartısının pisləşməsi, gözdə ağrı, gözdə narahatlığın artması
- Görmə qabiliyyətinin bulanıqlaşması və ya zəifləməsi
- Görmə sahəsində kiçik hissəciklərin sayının bir neçə gündən sonra azalmaması
- İşığa həssaslığın artması.

Həkimin tövsiyə etdiyi müalicə cədvəlinə riayət etmək vacibdir. Müalicəni dayandırmazdan əvvəl həkimlə məsləhətləşin.

# 7| Təhlükəsizlik məlumatının bildirilməsi

Sizdə hər hansı əlavə təsir yarandıqda, mümkün qədər tez bu barədə həkimə məlumat verin. Buraya bu təlimatla birlikdə aldığınız içlik-vərəqəsində qeyd olunmayan hər hansı mümkün əlavə təsirlər daxildir.

Siz həmçinin əlavə təsirlər barədə birbaşa milli hesabat sistemi vasitəsilə məlumat verə bilərsiniz

Vabismo dərman vasitəsinin istifadəsi zamanı yaranan əlavə təsirlər haqqında məlumatları Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinə (Ünvan: AZ1065, Azərbaycan Respublikası; Bakı şəh.,C.Cabbarlı küç.34; Faks: (+99412) 596-07-16; e-mail: adr@pharma.az; Tel.: (+99412) 596-05-20; Qaynar xətt (+99412) 596-07-12) və ya "Caspian Consulting and Partners" LLC şirkətinə (Tel.:(+99412) 505-58- 47 və ya (+99412) 505-58-48 və ya (+99450)263-03-17) və ya e-mail: gunay.m.roche@gmail.com) bildirməyinizi xatırladırıq. Siz həmçinin “Roche Georgi” MMC şirkətinin Azərbaycan üçün farmakonəzarət üzrə məsul şəxsi olan Elen Xaraişvili ilə georgia.safety@roche.com elektron poçtu və ya Tel.: (+995) 322 506284; (+995) 322 507284 vasitəsilə də əlaqə saxlaya bilərsiniz

**Əlavə təhlükəsizlik məlumatı üçün həkimlə əlaqə saxlayın və Vabismo dərman vasitəsinin istifadə təlimatına bax.**

Version 6.4.0

Azərbaycan Respublikası
Məhdud Məsuliyyətli Cəmiyyət
Caspian Consulting and Partners
Limited Liability Company
Azerbaijan Republic

Caspian Consulting and Partners LLC
J.Mammadguluzade str. 102 A, City Point
Baku, 8-th floor
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: eabdinova@caspian-consulting.com
website: www.caspian-consulting.com

**16 aprel 2025**

**Əlavə risk minimallaşdırma tədbiri**

**Xəstə Bələdçisi**

**Vabismo – audio yazı**

nYMD adlanan neovaskulyar və ya yaşa bağlı yaş makulyar degenerasiyasının müalicəsi məqsədilə, və ya DMÖ adlanan diabetik makulyar ödemin müalicəsi üçün istifadə olunan Vabismo dərman vasitəsinin təlimatına xoş gəlmisiniz.

Bu təlimatda Vabismo ilə əlaqəli faydalar və riskləri anlamaq üçün vacib təhlükəsizlik məlumatlar təqdim edilmişdir.

Mövcud vəziyyətiniz və müalicə haqqında daha çox məlumat əldə etmək üçün üçün bu təlimatdan istifadə edə bilərsiniz. Bu təlimat həmçinin neovaskulyar və ya yaşa bağlı yaş makulyar degenerasiyası və ya diabetik makulyar ödem olan insanların yaxınları və baxıcıları üçün nəzərdə tutulmuşdur. Əlavə suallarınız olarsa, həkimlə əlaqə saxlayın.

Bu dərman vasitəsi xüsusi nəzarətdə olan dərman vasitələrinin siyahısına daxil edilmişdir. Bu, yeni təhlükəsizlik məlumatlarını tez bir zamanda müəyyən etməyə imkan verəcəkdir. Siz baş verə bilən hər hansı əlavə təsirləri bildirməklə, bu prosesə kömək edə bilərsiniz.

**Bölmə 1:** Vacib təhlükəsizlik məlumatlarının xülasəsi

Vabismo preparatı ilə müalicədən sonra aşağıdakı simptomlardan hər hansı biri yaranarsa, mümkün qədər tez həkimlə əlaqə saxlayın:

Görmənin qəfil zəifləməsi, dumanlaması və ya həmişəki kimi yaxşı olmamas, həmçinin görmə sahəsində kiçik hissəciklərin sayının artması, gözdə qızartının artması, göz ağrısı, gözdə narahatlıq hissi və işığa qarşı həssaslığın artması.

**Bölmə 2**: Neovaskulyar və ya yaşa bağlı yaş makulyar degenerasiyası nədir?

Neovaskulyar və ya yaşa bağlı yaş makulyar degenerasiya 60 yaş və daha böyük insanlar arasında görmə itkisinin ümumi səbəbi hesab edilir. Neovaskulyar və ya yaşa bağlı yaş makulyar degenerasiya nə qədər çox proqressivləşərsə, görmə itkisi də bir o qədər çox olur. Bu uzun müddət davam edən haldır və davamlı qayğı tələb edir.

Makulyar degenerasiya torlu qişanın mərkəzi hissəsi olan makulada damarların anormal böyüməsi nəticəsində baş verir. Daha sonra damarlarda qanaxma müşahidə edilə və gözün arxasına maye sıza bilər ki, bu da gözün arxasındakı işığa həssas təbəqə olan torlu qişanın ödeminə və görmə itkisinə səbəb olur.

Caspian Consulting and Partners LLC
J.Mammadguluzade str. 102 A, City Point
Baku, 8-th floor
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: eabdinova@caspian-consulting.com
website: www.caspian-consulting.com

nYMD zamanı bir və ya hər iki göz zədələnə bilər, lakin bu zədələnmə görmənin yalnız mərkəzi hissəsini əhatə edir.

Torlu qişa gördüyümüz təsvirləri qeyd edən və sonra onları beyinə ötürən gözün içərisində olan arxa təbəqədir.

Makula ən kəskin görmə qabiliyyətimizə cavabdeh olan torlu qişanın mərkəzi hissəsidir. Oxumaq, avtomobil idarə etmək, üzləri və ya rəngləri tanımaq və obyektləri kiçik detallarda görmək üçün zəruridir.

Neovaskulyar və ya yaşa bağlı yaş makulyar degenerasiyanın simptomlarına aşağıdakılar daxil aid edilə bilər:
görmə mərkəzində qaranlıq ləkələr, boş sahə, rənglərin daha az parlaq və ya zəif görünməsi, bulanıq və ya təhrif olunmuş görmə, məsələn, düz xətlərin dalğalı görünməsi, obyektlərin yanlış forma və ya ölçüdə görünməsi, oxumaqda və nəqliyat vasitələrini idarə etməkdə, televizora baxmaqda və ya digər gündəlik işləri görməkdə çətinlik.

**Bölmə 3:** Diabetik makulyar ödem nədir?

Uzun müddət şəkərli diabetdən əziyyət çəkən insanlar (qanda yüksək şəkər (qlükoza) səviyyələri) DMÖ inkişafı ilə bağlı risk altındadır.

Diabetik makulyar ödem, gözün arxasındakı işığa həssas təbəqə olan torlu qişada qan damarları zədələndikdə baş verir. Bu damarlar daha sonra gözə mayenin sızmasına səbəb olaraq, makulada, torlu qişanın mərkəzi hissəsində ödemə və görmə itkisinə səbəb ola bilər.

Diabetik makulyar ödem şəkərli diabet olan insanlarda görmə itkisinin əsas səbəbidir.

Torlu qişa gördüyümüz təsvirləri qeyd edən və sonra onları beyinə göndərən gözün içərisində olan arxa təbəqədir.

Makula ən kəskin görmə qabiliyyətimizə cavabdeh olan torlu qişanın mərkəzi hissəsidir. Oxumaq, avtomobil idarə etmək, üzləri və ya rəngləri tanımaq və obyektləri kiçik detallarda görmək üçün istifadə olunur.

Diabetik makulyar ödeminin simptomlarına görmə sahəsində boşluqlar və ya tünd ləkələr, rənglərin tutqun və ya solğun görünməsi, bulanıq və ya dalğalı görmə, yanlış ölçüdə görünən obyektlər, parlaq və ya güclü işıqda görməkdə çətinlik, oxumaq və nəqliyyat idarə etməkdə çətinlik ola bilər.

**Bölmə 4**: Vabismo nədir?

Vabismo, tərkibində farisimab təsiredici maddəsi olan göz inyeksiyasıdır.

Müəyyən zülalların səviyyəsi normadan yüksək olduqda, bu, qan damarlarının anormal böyüməsinə və ya gözün arxasındakı normal damarların zədələnməsinə səbəb ola bilər. Daha sonra bu anomaliya nəticəsində gözə maye sıza bilər ki, bu da şişkinlik və görmə

itkisinə səbəb olar.

Vabismo həmin zülalları blokadaya alaraq mayenin sızmasını azaltmağa kömək edir və bununla da görmə qabiliyyətini qoruyur və ya hətta yaxşılaşdırır.

Müalicənin düzgün aparılmasına əmin olmaq üçün vəziyyətiniz həkim tərəfindən mütəmadi olaraq izlənəcək.

**Bölmə 5:** Vabismo ilə müalicə

Müalicə gününə hazırlıq

Sizi konultasiyaya ailə üzvünüz və ya baxıcınız aparıb və geri getirməlidir. Bu, sizə nəinki logistikada, həm də həkimlə söhbət zamanı verilən bütün məlumatları yadda saxlamaqda kömək edə bilər.

İnyeksiya günündə makyajdan etmək olmaz.

İnyeksiyadan sonra gözləriniz işığa həssas ola biləcəyi üçün özünüzlə tünd rəngli şüşəsi olan eynək götürün.

Müalicə günü

*İnyeksiyadan əvvəl*
Vabismo, göz inyeksiyasının yeridilməsində təcrübəsi olan həkim tərəfindən gözünüzə intravitreal inyeksiya şəklində yeridilir. İnyeksiyadan əvvəl həkim infeksiyanın qarşısını almaq məqsədilə gözünüzü ehtiyatla təmizləmək üçün dezinfeksiyaedici göz yuyucu vasitələrdən istifadə edəcək.

Belə inyeksiyadan narahat olmağınız başa düşüləndir. İnyeksiya zamanı ağrıları azaltmaq və ya qarşısını almaq məqsədilə gözü ağrısızlaşdırmaq üçün həkim göz damcısı (yerli anesteziya məqsədilə) istifadə edəcək.

Gözlərinizi qırpmamaq üçün göz qapaqlarınız alətin istifadəsi ilə açıq saxlanılacaq.

Gözünüzdə və ya ətrafında infeksiya olduqda, ağrı və ya qızartı kimi göz iltihabının simptomları olduqda, farisimaba və ya bu preparatın tərkibindəki köməkçi maddələrdən hər hansı birinə qarşı allergiyanız olduqda, Vabismo preparatını qəbul etməzdən əvvəl həkimə məlumat verin. Tam siyahı qablaşdırmada olan içlik vərəqədə qeyd edilmişdir.

*İnyeksiya zamanı*

İnyeksiya cəmi bir neçə dəqiqə çəkəcək və siz oyaq olacaqsınız.

İnyeksiya zamanı təzyiq hiss edə bilərsiniz, lakin heç bir ağrı hiss etməməlisiniz.

*İnyeksiyadan sonra*

Caspian Consulting and Partners LLC
J.Mammadguluzade str. 102 A, City Point
Baku, 8-th floor
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: eabdinova@caspian-consulting.com
website: www.caspian-consulting.com

Hər hansı xüsusi fəaliyyətlə məşğul olub-olmamağınız barədə həkiminizdən soruşun və həkiminizin sizə təyin etdiyi müalicəni istifadə edin. Gözlərinizə mümkün qədər çox istirahət verməyə çalışın. Vabismo inyeksiyasından sonra ən azı bir neçə saat ərzində müvəqqəti görmə problemləriniz (məsələn, bulanıq görmə) ola bilər. Bu müddət ərzində maşın sürməyin və ya təhlükəli mexanizmlərdən istifadə etməyin.

**Bölmə 6:** İnyeksiyadan sonra adekvat qulluq üçün tövsiyələr

İnyeksiyadan sonra, ehtimal ki, görmə qabiliyyətiniz bulanıq ola və görmə sahəsində kiçik hissəciklər görünə bilər. Bu normaldır və yalnız bir neçə gün davam etməlidir.

Bəzən, Vabismo intravitreal inyeksiyasından sonra siz aşağıdakı halları da müşahidə edə bilərsiniz:

- Göz daxilində iltihab.
- Göz daxilində "endoftalmit" adlanan nadir hallarda rast gəlinən, lakin ağır infeksiya.

Allergik reaksiyalar, iltihab və ya infeksiya əlamətləri olan aşağıdakı əlavə təsirlərdən hər hansı biri qeyd olunarsa dərhal həkimlə əlaqə saxlayın:
qəfil görmə itkisi, gözdə qızartının daha da pisləşməsi, göz ağrısı, gözdə narahatlığın artması, görmə qabiliyyətinin bulanıqlaşması və ya zəifləməsi, görmə sahəsində kiçik hissəciklərin sayının bir neçə gündən sonra azalmaması və ya işığa həssaslığın artması.

Həkimin tövsiyə etdiyi müalicə cədvəlinə riayət etmək vacibdir. Müalicəni dayandırmazdan əvvəl həkimlə məsləhətləşin.

**Bölmə 7**: Təhlükəsizlik məlumatlarının bildirilməsi

Sizdə hər hansı əlavə təsir yarandıqda, mümkün qədər tez bu barədə həkimə məlumat verin. Buraya bu təlimatla birlikdə aldığınız içlik vərəqədə qeyd olunmayan hər hansı mümkün əlavə təsirlər daxildir.

Əlavə təsirləri bildirməklə siz bu dərman vasitəsinin təhlükəsizliyi haqqında daha çox məlumat yığmağa kömək edə bilərsiniz.

Əlavə təhlükəsizlik məlumatı üçün həkimlə əlaqə saxlayın və Vabismo prepartının istifadə təlimatına baxın.

CASPIAN CONSULTING & PARTNERS

Caspian Consulting and Partners LLC
J.Mammadguluzade str. 102 A, City Point
Baku, 8-th floor
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: eabdinova@caspian-consulting.com
website: www.caspian-consulting.com

Vabismo dərman vasitəsinin istifadəsi zamanı yaranan əlavə təsirlər haqqında məlumatları Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinə (Ünvan: AZ1065, Azərbaycan Respublikası; Bakı şəh.,C.Cabbarlı küç.34; Faks: (+99412) 596-07-16; e-mail: adr@pharma.az; Tel.: (+99412) 596-05-20; Qaynar xətt (+99412) 596-07-12) və ya "Caspian Consulting and Partners" LLC şirkətinə (Tel.:(+99412) 505-58- 47 və ya (+99412) 505-58-48 və ya (+99450)263-03-17) və ya e-mail: gunay.m.roche@gmail.com) bildirməyinizi xatırladırıq. Siz həmçinin "Roche Georgi" MMC şirkətinin Azərbaycan üçün farmakonəzarət üzrə məsul şəxsi olan Elen Xaraişvili ilə georgia.safety@roche.com elektron poçtu və ya Tel.: (+995) 322 506284; (+995) 322 507284 vasitəsilə də əlaqə saxlaya bilərsiniz

Hörmətlə,

"Caspian Consulting and Partners " MMC
Məmmədova Günay
Farmakonəzarət üzrə məsul şəxs

Roche